AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN BEYNƏLXALQ UNİVERSİTETİ

TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU

AZƏRBAYCAN PEDAQOJİ-PSİXOLOJİ ELMLƏR ASSOSİASİYASI

# "QLOBALLAŞMA VƏ AZƏRBAYCANDA TƏHSİLİN AKTUAL PROBLEMLƏRİ"

MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN

# MATERİALLARI




BAKI-2003

***İ.İsaxanlı***
***Xəzər universiteti***

# TƏLƏBƏLƏRƏ VƏ ÖZƏL ALI MƏKTƏBLƏRƏ DÖVLƏT YARDİM PROQRAMLARINA DÜNYA TƏCRÜBƏSI MÜSTƏVISINDƏN BAXIŞ

Azərbaycanda alì təhsìl almaq ìstəyənlərìn sayı çox, bu ìstəyìnì həyata keçìrmək ìmkanı olanların sayı ìsə kìfayət qədər azdır. Belə bìr halda alì təhsìl almaq ìstəyənlərə dövlət tərəfìndən müəyyən yardım proqramlarının olması vacibdir. Bu barədə hazırda qüvvədə olan Təhsìl Qanununun 3-cü maddəsìnìn 5-cì bəndìndə deyìlìr: "Pullu təhsìl müəssìsələrìndə təhsìl alan aztəmìnatlı vətəndaşlara eynì növdən və tìpdən olan dövlət təhsìl müəssìsələrìnìn normatìvlərì əsasında dövlət tərəfìndən ödənc verìlìr". Həmìn maddənìn 7-cì bəndìndə deyìlìr: "Dövlət alì məktəb tələbələrìnə təhsìlìnì başa vurduqdan sonra 5 ìl müddətìndə ödəmək şərtìlə kredìt verə bìlər". Bu müddəalar Təhsìl Qanunun yenì layìhəsìndə bu şəkìldə verìlmìşdìr. "Təhsìl aldíqları müddətdə maddì ehtìyaclarını ödəmək üçün alì təhsìl müəssìsələrìndə təhsìl alanlara təhsìlìnì başa vurduqdan sonra qaytarmaq şərtìlə kredìt verìlə bìlər".

Təbìì kì, Təhsìl Qanununda yer almış bu müddəalarín həyata keçìrìlməsì maddì vəzìyyətì aşağı səvìyyədə olanlara alì təhsìl almaqda böyük dayaq olmaqla yanaşı, həmìn ìnsanların təhsìl alacaqları alì məktəblərìn də malìyyə durumuna kìfayət qədər müsbət təsìr göstərərdì. Lakìn çox təəssüf kì, bu müddəaların həyata keçìrìlmə mexanìzmì ìşlənìb hazırlanmadığından onlar kağíz üzərìndə bìr vəd olaraq qalmaqdadír.

Qeyd edək kì, dünyanın qabaqcıl ölkələrìndə müxtəlif metodlarla alì təhsìl alanlara kömək göstərìlməsì həmìşə dìqqət mərkəzìndədìr.

ABŞ-ın bu sahədə təcrübəsìnə nəzər salaq. ABŞ-da federal hökumət tələbələrə genìş təqaüd, sudalar verməklə

onlarin alì təhsil almaq ìmkanlarını artırır. Bu məqsədlə federal hökumət tərəfindən tələbəyə kömək proqramlarí hazırlanmışdır.

"Tələbələrə bìrbaşa əvəzsiz kredìt ayírma proqramí", "Tələbələrì təhsil aldığı müddətdə ìşlə təmìn etmə proqramı", "Tələbələrə uzunmüddətli azfaizli kredit vermə proqramı", "tələbələrìn valideynlərìnə kredìt vermə proqramı", və s. proqramlar hər cür yolla gənclərə alì təhsìl almaq üçün genìş ìmkanlar yaradır.

Dünya təcrubəsində tələbələrə müxtəlif yardím proqramları ilə yanasí özəl ali məktəblərin özlərinə də dövlət tərəfindən müxtəlif kömək metodları var.

Bìr sıra ölkələrdə özəl ali məktəblər təhsìlìn keyfiyyətìnì yüksəltmək və səmərəlìlìyìnì artırmaq məqsədìlə dövlətdən maddì kömək almaq üçün müsabìqədə ìştìrak edìrlər.

Özəl ali məktəblərə onların vergì və müxtəlif rüsumlardan azad olunması, bìrbaşa malìyyələşdìrmə, torpaq sahələrì verilməklə də kömək göstərìlìr.

Azərbaycanda da bu metodların hər birini tətbiq etmək olar, ancaq özəl ali məktəblərdə təhsilin keyfiyyətinin həmişə ön planda dayanma zərurətini nəzərə alaraq müsabiqə metodunun tətbiq olunması daha məqsədəuyğun və perspektivli görünür. Belə ki, dövlətin irəli sürdüyü şərtlər daxilində elan olunmuş müsabiqədə iştirak edərək, qalib gələn ali məktəbə dövlət yardım göstərir və bu yardımın necə istifadə edilməsinə nəzarəti həyata keçirir. Bütün bunları dövlət ölkədə təhsili əsas idarəetmə orqanı olan Təhsil Nazirliyinin rəhbərliyi ilə həyata keçirə bilər. Özəl ali məktəbə bu yolla yardım edilməsinin aşağıdakı üstünlükləri var:

Dövlət özünün seçdiyi, ali təhsilin inkişafında müsbət roluna şübhəsi qalmadığı bir ali məktəbə kömək edir.

Bundan sonra heç kim dövləti özəl ali məktəblərə ögey münasibətdə qınaya bilməz.

Bu, özəl ali məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsinin dövlət əhəmiyyətli məsələ olduğunu vurğulamaqla, ictimaiyyətdə özəl ali təhsilin nüfuzunun qalxmasına kömək edər.

Dövlət ayırdığı yardımın hara və necə istifadə olunmasına nəzarət edir və beləliklə, həmin yardımın doğrudan da ali təhsilin inkişafına, təhsildə keyfiyyətin və səmərəliliyin artırılmasına sərf olunduğuna əmin olur.

Ən əsası isə, bu hal özəl ali məktəblər arasında yarış və rəqabətin güclənməsinə səbəb olacaq ki, bu da, əlbəttə, ümumilikdə təhsilin keyfiyyətinin yüksəlməsinə gətirib çıxaracaq.

Getdikcə ictimaiyyətdə özəl ali məktəblərlə bağlı fikirlərin müsbət istiqamətdə dəyişməsinə baxmayaraq, özəl ali təhsilin inkişafı dövlətin diqqətindən kənar qalarsa, bu istiqamətdə xüsusi dövlət proqramları işlənməzsə, özəl ali təhsilin inkişaf sürəti çox aşağı olacaq ki, bu da ümumilikdə ali təhsilin inkişafına mənfi təsir göstərəcək.

Özəl ali məktəblərə dövlətin xüsusi yardım proqramlarının olmadığı bir dövrdə, onların pozulmuş xüsusi özəlliklərinin (tələbə qəbulunun sərbəst surətdə aparılması, ixtisaslar spektrinin sərbəst olaraq ali məktəbin özü tərəfindən müəyyənləşdirilməsi, özəl ali məktəblərin məzunlarının dövlət ali məktəblərin məzunlarına nisbətən işə düzəlmə prosesində üzləşdiyi süni problemlərin aradan qaldırılması və s.) özünə qaytarılması özəl ali məktəblərin yalnız bu günkü fəaliyyətində irəliləyişə nail olmaq üçün deyil, özəl ali təhsilin gələcək inkişaf yollarının müəyyənləşdirilməsində, ümumiyyətlə, özəl ali təhsilin cəmiyyətdə öz yerinin möhkəmləndirilməsində mühüm əhəmiyyət daşıyır.